**G.Y.YEDİYARLI**
*doktorant*
*e-mail: gunay.yediyarli.92@mail.ru*
**: https://orcid.org/0009-0007-9084-415X**

**Xəzər Universiteti**
(Bakı şəh., M.Gəncəvi küç., 11)

**10.62021/0026-0028.2025.4.320**

# MÜASİR AZƏRBAYCAN NƏSRİNDƏ QAÇQINLIQ MOTİVİ

***Xülasə.*** *Məqalədə müasir Azərbaycan nəsrində qaçqınlıq motivinin formalaşması və bədii transformasiyası araşdırılır. Qarabağ müharibəsi nəticəsində yaranan qaçqınlıq fenomeni yazıçılar tərəfindən əvvəlcə faktoloji hadisə kimi təqdim olunsa da, sonrakı dövrdə fərdi psixoloji yaşantılar, yaddaş və kimlik problemləri müstəvisində işlənmişdir. Sabir Əhmədli, Aqil Abbas, Elçin Hüseynbəyli və Şərif Ağayar kimi yazıçıların əsərləri əsasında göstərilir ki, qaçqınlıq motivi zamanla sosial gerçəklikdən estetik-fəlsəfi məna daşıyan bədii hadisəyə çevrilmişdir. Nəticədə bu mövzu Azərbaycan ədəbiyyatında milli kimliyin, yaddaşın və mənəvi dirənişin ifadəsi kimi çıxış edir.*

***Açar sözlər:*** *çağdaş nəsr, qaçqınlıq motivi, yurd həsrəti*

Nəsrdə qaçqınlıq mövzusu xüsusi bədii yanaşma tələb edir. Müharibə və qaçqınlıq barədə sadəcə yazmaq bir məsələdir, lakin onların gerçək mahiyyətini açıb göstərmək tamamilə fərqli və daha mürəkkəb bir ədəbi vəzifədir. Müasir yazıçılar əsasən ikinci yolu seçirlər. Onlar müharibənin – sanki bütün dünyaya yayılan bir fəlakətin – yaratdığı dağıntılar fonunda insan psixologiyasında baş verən ağrılı dəyişiklikləri, dərin travmaları araşdırır, bir kəndi və ya qəsəbəni əhatə edə biləcək simvolik "qaçqın çadırı" altında insanların bir-birindən uzaqlaşmasının, yadlaşmasının sosial-psixoloji səbəblərini üzə çıxarmağa çalışırlar.

Müasir Azərbaycan ədəbiyyatında qaçqınlıq mövzusu təkcə tarixi faktların bədii inikası kimi deyil, həm də milli kimliyin, yaddaşın və mənəvi dəyərlərin qorunması məsələsi kimi diqqət mərkəzinə çəkilir. Qarabağ müharibəsi nəticəsində yüz minlərlə insanın yurd-yuvasını itirməsi yazıçıların yaradıcılıq istiqamətini dəyişdirmiş, yeni bir mövzu qatını formalaşdırmışdır. Bu mövzu ədəbi mətndə yalnız faciəvi hadisələrin təsviri ilə məhdudlaşmır, həm də fərdin daxili dünyasında yaranan psixoloji gərginliklərin, yaddaş sarsıntılarının bədii ifadəsinə çevrilir.

Ədəbiyyatda qaçqınlıq motivi zamanla transformasiya edərək müxtəlif rakurslardan təqdim olunur: bəzən itirilmiş torpağın həsrəti, bəzən yurd xatirələrinin qorunması, bəzən də insanın öz varlığını və kimliyini axtarışı kimi. Bu baxımdan müasir Azərbaycan nəsri həm sosial gerçəkliyi sənədləşdirir, həm də onu bədii təxəyyülün süzgəcindən keçirərək yeni məna qatları ilə zənginləşdirir.

**Qaçqınlıq motivinin formalaşmasına təsir edən ictimai-siyasi amillər:** Azərbaycan nəsrində qaçqınlıq motivinin meydana gəlməsi birbaşa xalqın yaşadığı tarixi hadisələrlə bağlıdır. XX əsrin sonlarında baş verən Qarabağ müharibəsi, insanların kütləvi şəkildə öz yurd-yuvalarından didərgin düşməsi və yeni sosial reallıqlar bu mövzunun ədəbiyyata gətirilməsini zəruri etdi. Ədəbiyyat burada sadəcə hadisələrin xronikasını aparmır, həm də həmin dövrün ictimai-psixoloji ovqatını, insanların daxili ağrı və təlatümlərini əks etdirir.

Qaçqınlıq motivini doğuran əsas amillərdən biri məkan itkisidir. İnsanın doğma torpağını itirməsi yalnız fiziki köçkünlük deyil, həm də mənəvi köks boşluğu yaradır. Yazıçılar bu boşluğu bədii obrazların yaddaşında, onların xatirələrində və gündəlik həyatında əks etdirərək motivi daha canlı edirlər.

Digər mühüm amil kimlik problemidir. Qaçqınlıq şəraitində insan özünü cəmiyyətin kənarında hiss edir, sosial statusu dəyişir, "öz" və "yad" məkanlar arasında bölünür. Azərbaycan nəsri bu qarşıdurmanı obrazların daxili monoloqları, psixoloji təlatümləri və konfliktləri vasitəsilə bədii mətndə canlandırır.

Elçin Hüseynbəylinin "Küləkli çöl" hekayəsindəki "– Sizin kənd hardadı ki? – soruşdum. – Uzaqda, – dedi, – əlçatmaz yerdə, o dey o tərəfdə. – Harda? İranda? – sərhədi göstərdim. – Yox, – dedi, – didərginlərdənəm. – Gözlərini dikdi yerə, utandı elə bil" [5, s. 267-268] dialoqu qaçqınlıq anlayışını yalnız fiziki yerdəyişmə kimi deyil, həm də dərin mənəvi sarsıntı, kimlik itkisi və insan ləyaqətinə vurulan zərbə kimi təqdim edir. Qəhrəmanın "didərginlərdənəm" sözlərini deyərkən gözlərini yerə dikməsi və sanki utanması, qaçqınlığın sadəcə hüquqi və ya sosial status deyil, daxildən yaşanan bir ağrı, qüssə və itki halı olduğunu göstərir.

Eyni zamanda, müharibə təcrübəsi qaçqınlıq mövzusunun əsas fonunu təşkil edir. Müharibə yalnız döyüş səhnələri ilə deyil, həm də qaçqın düşmüş insanların gündəlik həyatı, yaşama uğrunda mübarizəsi, ümid və ümidsizlik hissləri ilə göstərilir. Bu səbəbdən müasir Azərbaycan yazıçılarının yaradıcılığında qaçqınlıq mövzusu sosial hadisədən çıxaraq dərin mənəvi-psixoloji məna qazanır.

Müharibə və qaçqınlıq mövzusunda yazılmış əsərlərdə həm də gələcəyə ümid motivi var. Bu çox vaxt obrazların yaşama iradəsini və mənəvi dirənişini qoruyan əsas dayağa çevrilir. Qəhrəmanların "geri dönəcəyik", "yurdumuzu bərpa edəcəyik" kimi fikirləri yalnız şəxsi arzu deyil, kollektiv yaddaşın diriliyini, milli kimliyin qorunmasını ifadə edir. Bu ümid sayəsində didərgin insan keçmişin ağrılarını aşaraq gələcəyə yönəlir və mənəvi dayanıqlığını itirmir. Elçin Hüseynbəylinin "Kəndə gün çıxanda qayıdacağıq" adlı hekayəsində həm keçmişin ağrılı xatirələrinə dönüş, həm də gələcəyə ümid hissi mövcuddur. Müəllifin qəhrəman dilindən səsləndirdiyi "Kəndimizə qayıdanda mütləq anamın qəbrini ora apararıq, atamın yanında basdırmaq üçün" [5, s. 181] ifadəsi təkcə bir ailənin yaşadığı ayrılıq faciəsini deyil, bütöv bir xalqın didərginlikdən doğan psixoloji və mənəvi parçalanmasını simvolizə edir.

Müasir Azərbaycan romanları qaçqınlıq mövzusunu həm tarixi, həm də psixoloji aspektdən təqdim edir. Bu əsərlərdə yazıçılar yalnız hadisələrin reallığını deyil, eyni zamanda fərdi talelərin bədii ifadəsini, kollektiv yaddaşın qorunmasını da əsas məqsəd kimi götürürlər.

Aqil Abbasın "Dolu" romanı müharibə və qaçqınlıq mövzusunun ən parlaq nümunələrindəndir. Əsərdə Qarabağ müharibəsi yalnız hərbi toqquşma kimi yox, həm də bütöv bir xalqın yaddaşında dərin izlər buraxan faciə kimi təqdim olunur. Qaçqınlıq motivi romanda yurd həsrəti, ata-baba torpaqlarının itkisi ilə sıx bağlıdır. Burada "qaçqın" obrazı sadəcə məcburi köçkün deyil, həm də öz yaddaşında daimi müharibə daşıyan bir fərddir. Yazıçı hadisələri təqdim edərkən realizmlə yanaşı simvolik məqamlardan da istifadə edir. Məsələn, "Dolu" obrazı həm müharibənin dağıdıcı gücünü, həm də insanın içindəki fırtınanı təmsil edir.

Müharibə və qaçqınlıq faktı romanda sadəcə müharibə xronikası deyil, "dolu" obrazı vasitəsilə təbiətin və tarixin qəzəbi kimi təqdim olunur. "Qəflətən bu buludsuz, bu aydın, bürküdən ulduzlar da sayrışmayam göylər necə şaqqıldadı və şəhəri dolu necə vurdusa, şəhər dik atıldı...Və dik atılan şəhər özünü atdı bayıra... Amma Dolunun sevincini yaşamağa, gətirdiyi soyulmuş baldırğan qoxusunu ciyərlərinə çəkməyə, Tanrıdan başqa heç bir bəstəkarın bəstələyə bilmədiyi qeyri- adi musiqisinə yox. Uşaqlar bu Dolu ilə oynaya bilmirdilər, ağızlarına alıb konfet kimi sümürə bilmirdilər. Bu dolunun musiqisindən ləzzət almaq olmurdu, bu dolunun musiqisi insanların beyninə bir dolu kimi dəyib ruhunu əzirdi. Göydən dolu yağmırdı, Əzrayıl yağırdı" [1, s. 28-29].

Sabir Əhmədlinin roman və povestləri isə qaçqınlıq mövzusunu daha çox tarixi yaddaş kontekstində təqdim edir. O, keçmişlə bu günü tutuşdurar, işğal nəticəsində yaşanan faciələri bir xalqın uzunmüddətli dərdi kimi göstərir. Yazıçının əsərlərində qaçqınlıq təkcə müasir hadisə deyil, həm də tarixdən gələn itkilərin davamı kimi qavranılır. Bu isə qaçqınlıq motivini daha geniş, milli-mənəvi çərçivəyə çıxarır.

Elçin Hüseynbəylinin əsərlərində qaçqın obrazları fərqli rakurslardan təqdim olunur. O, daha çox insanın gündəlik həyatını, məişətini, yeni mühitdə özünü təsdiq etmək uğrunda mübarizəsini qabardır. Qaçqınlıq burada sırf faciə yox, həm də insanın sınmamaq, ayaqda qalmaq iradəsinin göstəricisidir.

Elçin Hüseynbəylinin "Kəndə gün çıxanda qayıdacağıq" hekayəsində müəllifin öz övladı ilə dialoqu qaçqınlıq taleyinin ən həssas məqamlarını əks etdirir. Müəllif burada məğlubiyyətlə barışmadığını açıq şəkildə göstərir və doğma yurdunu itirmiş insanın daxili kədərini bədii şəkildə ifadə edir. "Hava keçə kimi qara və soyuqdur" təsviri həm real həyatın sərtliyini, həm də qaçqınların yaşadığı mənəvi boşluğu simvolizə edir. Hekayədə keçmişin acı xatirələri ilə gələcəyə ümid arasında bir körpü qurulur. Bu isə qaçqınlıq motivinin transformasiyası baxımından önəmlidir – müəllif həm itki, həm də ümid duyğularını bir arada verərək yaddaşdan gələcəyə yönələn bir mənzərə yaradır [5].

Şərif Ağayarın əsərləri isə qaçqınlıq motivinə psixoloji dərinlik gətirir. Yazıçı fərdi taleləri işıqlandırır, xüsusilə qaçqınlıq şəraitində formalaşan gənc nəsillərin mənəvi durumunu təsvir edir. Onun qəhrəmanlarında yurd itkisi ilə yanaşı, daxili boşluq, mənəvi parçalanma, bəzən də kimlik axtarışı ön plana çıxır.

Şərif Ağayarın hekayələrində ayrılıq və həsrət motivləri o qədər güclüdür ki, oxucu hadisələrin reallığını dərhal duyur. "Arıların səssizliyi" hekayəsində qaçqın qəsəbəsinə alışa bilməyən Mədət kişi hər gün Şor kanalın sahilinə qalxaraq doğma kəndinə həsrətlə baxır. Onun xəyalları daim o yerlərə qanad açır, öz evinə qayıtmaq arzusu ilə yaşayır. Obrazın dilindən səslənən "Elatın gələn vədəsidi, indi hasarım uçub, gərək gedib uçan daşları yerinə qoyam yoxsa heyvanlar bağı alt-üst eləyər, arı yeşiklərini aşırar..." [2, s. 127] sözləri qaçqın insanın yaddaşında kənd həyatının canlı qaldığını göstərir. Bu təsvirlərdə qaçqınlıq motivi transformasiyaya uğrayır: itirilmiş yurd real məkandan xəyali məkana keçir, qaçqınlığın acısı isə gələcəyə ümidlə müşayiət olunur. Qaçqınlıq fiziki məhrumiyyətdən xatirələr və təsəvvürlər səviyyəsinə keçir, amma həsrət və ümid duyğuları eyni gücdə qalır.

Beləliklə, müasir Azərbaycan romanlarında qaçqınlıq motivi yalnız sosial hadisənin təsviri ilə kifayətlənmir, həm də obrazların mənəvi dünyasında dərinləşərək psixoloji-ədəbi hadisəyə çevrilir.

**Qaçqınlıq motivinin bədii transformasiyası:** Müasir Azərbaycan nəsrində qaçqınlıq motivi sadəcə sosial hadisə kimi deyil, bədii-estetik hadisə kimi də təqdim olunur. Əsərlərdə əvvəlcə faktoloji səviyyədə – işğal, köç, yurd itkisi təsvir edilsə də, zaman keçdikcə yazıçılar bu mövzunu daha çox psixoloji və simvolik müstəviyə keçirirlər.

Ədəbiyyatda müşahidə olunan əsas transformasiya istiqamətlərini bir neçə qrupda göstərmək olar:

1. Tarixi faktlardan fərdi yaddaşa keçid. İlk əsərlərdə hadisələrin real təsviri üstünlük təşkil edirdisə, sonrakı nümunələrdə obrazların şəxsi xatirələri, yaddaş parçaları ön plana çıxır. Bu, qaçqınlıq motivini kollektiv hadisədən fərdi psixoloji yaşantıya çevirir.
2. Məkan itkisi → kimlik axtarışı. Əvvəllər qaçqınlıq əsasən torpaq itkisi ilə bağlı verilirdisə, sonrakı mətnlərdə bu hal insanın özünü dərk etməsinə, kimlik böhranına çevrilir. Yəni qaçqınlıq sadəcə köçkün olmaq yox, həm də "mən kiməm?" sualını gündəmə gətirir.
3. Faciə → dirəniş. İlk yazılarda qaçqın obrazları daha çox kədər, ümidsizlik fonunda təqdim olunurdu. Müasir nümunələrdə isə həmin obrazların həyat uğrunda mübarizəsi, güclü iradəsi, sınmamaq istəyi qabardılır. Bu, mövzunun transformasiyasında mühüm məqamdır.
4. Realizm → simvolizm. Qaçqınlıq motivi bəzən təbiət obrazları, mifoloji işarələr və ya simvolik hadisələrlə ifadə olunur. Aqil Abbasın "dolu" obrazı, Şərif Ağayarın "Haramı" romanında mənəvi boşluq simvolu bunun bariz nümunələrindəndir.

Beləliklə, müasir Azərbaycan nəsrində qaçqınlıq motivi təkcə faktların təsviri kimi qalmamış, estetik-fəlsəfi məna da qazanmışdır. O, milli kimliyin qorunması, yaddaşın ötürülməsi, insanın daxili gücünün ifadəsi üçün mühüm bədii vasitəyə çevrilmişdir.

***Nəticə.*** Müasir Azərbaycan nəsrində qaçqınlıq motivi sadəcə bir tarixi dövrün ağrılı hadisələrinin təsviri deyil, həm də xalqın yaddaşını, milli kimliyini və mənəvi dayanıqlığını ifadə edən ədəbi hadisədir. Yazıçılar bu mövzunu müxtəlif üslublarda işləyərək həm kollektiv yaddaşı qoruyur, həm də fərdi talelərin psixoloji qatlarını açırlar.

Roman və hekayələrdə müşahidə olunduğu kimi, qaçqınlıq motivi zamanla transformasiyaya uğramışdır: əvvəlcə hadisələrin real təsviri ön planda idisə, sonrakı mətnlərdə bu motiv daha çox simvolik, fəlsəfi və psixoloji səviyyədə təqdim olunur. Bu, Azərbaycan ədəbiyyatının mövzunu sadəcə sənədləşdirməklə kifayətlənmədiyini, onu bədii-estetik müstəviyə daşıdığını göstərir.

Beləliklə, qaçqınlıq motivi müasir Azərbaycan nəsrində həm sosial gerçəkliyin ədəbi təcəssümü, həm də mənəvi-psixoloji təcrübələrin bədii transformasiyası kimi çıxış edir. Bu motiv vasitəsilə ədəbiyyat həm milli ağrının, həm də milli iradənin daşıyıcısına çevrilir.

***Məqalənin elmi yeniliyi.*** Məqalədə müasir Azərbaycan nəsrində qaçqınlıq motivinin sadəcə tarixi-sosial faktların təsviri kimi deyil, bədii transformasiya prosesi kontekstində öyrənilməsi yeni yanaşma kimi təqdim olunur. Əvvəlki tədqiqatlarda əsas diqqət daha çox müharibə və qaçqınlıq mövzusunun faktoloji təsvirinə yönəlmişdisə, bu məqalədə həmin motivin estetik-fəlsəfi mahiyyət kəsb etməsi, fərdi yaddaşla kollektiv yaddaş arasında körpü rolunu oynaması xüsusi vurğulanır.

***Məqalənin tətbiqi əhəmiyyəti.*** Məqalənin nəticələri Azərbaycan nəsrində qaçqınlıq motivinin inkişaf mərhələlərini izləmək, bu motivin sosial və psixoloji transformasiyalarını öyrənmək baxımından ədəbiyyatşünaslıq üçün faydalı ola bilər. Tədqiqat həm ali məktəblərdə müasir Azərbaycan ədəbiyyatının tədrisində, həm də qaçqınlıq mövzusunun bədii-estetik aspektlərini araşdıran gələcək elmi işlərdə tətbiq edilə bilər.

## Ədəbiyyat


1. Abbasov, A. Dolu: roman / A.Abbasov. – Bakı: Təhsil, – 2008. – 256 s.
2. Ağayar, Ş. Arıların səssizliyi (20 ilin 20 hekayəsi) / Ş.Ağayar. – Bakı: Qanun, – 2020. – 303 s.
3. Ağayar, Ş. Arzulardan sonrakı şəhər / Ş.Ağayar. – Bakı: Qanun, – 2017. – 232 s.
4. Əhmədli, S. Axirət sevdası (romanlar) / S.Əhmədli. – Bakı: Ozan, – 2003. – 73 s.
5. Hüseynbəyli, E. Ağ-qara. Hekayələr / E.Hüseynbəyli. – Bakı: Qələmnəşr, –2013. – 270 s.


**G.Y.Yediyarli**

**Refugee Motive in Modern Azerbaijan Prose**

***Summary***

The article explores the formation and artistic transformation of the motif of displacement in contemporary Azerbaijani prose. Although the phenomenon of displacement caused by the Karabakh war was initially depicted by writers as a factual event, in later works it has been approached through the lens of personal psychological experiences, memory, and identity issues. Based on the works of authors such as Sabir Ahmadli, Aqil Abbas, Elchin Huseynbeyli, and Sharif Aghayar, it is demonstrated that over time the motif of displacement has evolved from a social reality into an artistic phenomenon with aesthetic and philosophical significance. As a result, this theme in Azerbaijani literature functions as an expression of national identity, memory, and spiritual resilience.

***Keywords:*** *Contemporary prose, refugee motif, longing for homeland*

**Г.Я.Едийарлы**

**Мотив беженца в современной азербайджанской прозе**

***Резюме***

В статье исследуется формирование и художественная трансформация мотива вынужденного переселения в современной азербайджанской прозе. Если вначале феномен, возникший в

результате Карабахской войны, изображался писателями как фактическое событие, то в последующий период он стал рассматриваться в плоскости личных психологических переживаний, проблем памяти и идентичности. На основе произведений таких авторов, как Сабир Ахмедли, Агил Аббас, Эльчин Гусейнбейли и Шариф Агаяр, показывается, что со временем мотив переселения превратился из социальной реальности в художественное явление, приобретшее эстетико-философское значение. В результате эта тема в азербайджанской литературе выступает выражением национальной идентичности, памяти и духовного сопротивления.

***Ключевые слова:*** *Современная проза, мотив беженства, тоска по родине*

*Rəyçi: filol.ü.f.d., dos. D.V.Zeynalova*

*Redaksiyaya daxil olub: 29.09.2025*